# MÜHƏNDİS (ASAN XİDMƏT) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. "Qazdan istifadə Qaydaları" üzrə:**

- Qaz təsərrüfatında texniki təhlükəsizlik qaydaları;
- Qaz təsərrüfatında texniki istismar qaydaları;
- Əhali və qeyri-əhali abonentləri ilə qaz təchizatı barədə müqavilələrin bağlanması qaydaları;
- İstehlakçıya qazın verilməsinin dayandırılmasının əsasları və qazın alqı-satqı müqaviləsinin ləğvi;
- Paylayıcının vəzifələri;
- Paylayıcının hüquqları;
- İstehlakçının vəzifələri;
- İstehlakçının hüquqları.

**2. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu üzrə:**

- Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri;
- Vətəndaşların müraciətlərinə dair tələblər;
- Vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası;
- Müraciətin baxılmamış saxlanılması;
- Müraciətə baxılma müddəti;
- Müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin vəzifələri.

**3.Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında – Nümunəvi Əsasnamə**

- Ümumi müddəalar;
- Mərkəzin fəaliyyət istiqamətləri;
- Mərkəzin əsas vəzifələri;
- Mərkəzin hüquqları;
- Vətəndaşların qəbulu işinin təşkili sektorunun funksiyaları;
- Vətəndaşların hüquqlarının təminatı sektorunun funksiyaları;
- Uçot sektorunun funksiyaları;
- Mərkəzin fəaliyyətinin təşkili.

**4. "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları" üzrə:**

- Ümumi müddəalar.

**5. "ASAN xidmət" mərkəzlərində fəaliyyətin tənzimlənməsi və davranış Qaydaları üzrə:**

- Ümumi müddəalar;
- Mərkəzdə elektron növbə qaydaları;
- Əməkdaşların xidməti və xidmətdənkənar davranışı;
- Mərkəzlərdə fəaliyyətin təşkilinə və davranış qaydalarına nəzarət;
- Mərkəzlərdə qulluq keçən dövlət qulluqçularının və məlumat xidməti göstərən şəxslərin fəaliyyətinin təşkili;
- Əməkdaşların fəaliyyətinin təşkili.

**6. "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları üzrə:**

- Ümumi müddəalar;
- Səyyar xidmətin təşkili və həyata keçirilməsinin ümumi şərtləri;
- Səyyar xidmət sifarişi vermə üsulları;
- Səyyar xidmətin növləri və onların aparılma xüsusiyyətləri.

**7. "Itron" istehsalı olan Smart tipli, diafraqmalı qaz sayğacı üzrə:**

- Sayğacın konstruksiyası;
- Sayğacın elektron ekranında yarana biləcək Alarm həyəcan siqnallarının səbəbləri;
- Sayğacın istifadə qaydaları.

**8. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat" üzrə:**

- Ümumi müddəalar.

# Ədəbiyyat:

1. "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı
2. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu
3. "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı
4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" və "ASAN Kommunal mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları
7. Qaz təsərrüfatında texniki istismar, əməyin mühafizəsi, yanğın təhlükəsizliyi, ətraf mühitin mühafizəsi qaydalarına və beynəlxalq standartların tətbiqinə dair 1000 sual-1000 cavab. SOCAR Azəriqaz İB
8. Smart tipli sayğaclar haqqında məlumat

**1.Aşağıda qeyd olunanlardan hansı qadağandır?**
A)Müraciət barəsində qəbul edilmiş qərarla razılaşmadıqda həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək
B)Müraciət olunan məsələnin mahiyyətini öyrənmək və onun həlli üçün lazımi sənədləri tələb etmək
C)Müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat vermək, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərmək
D)Vətəndaşın müraciətinə obyektiv, hərtərəfli və vaxtında baxılmasını təmin etmək
E)İrqinə, milliyyətinə, dininə, dilinə və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq

**2. "İtron" istehsalı olan Smart tipli, diafraqmalı qaz sayğacının elektron ekranında ... yazısı olduqda, sayğacın batareya yuvasının açılması müəyyən olunur. Cümləni tamamlayın.**
*A) Alarm 1*
B) Alarm 2
C) Alarm
D) Alarm 5
E) Alarm 3

**3. Qazdan istifadə qaydalarına əsasən -"Paylayıcının təqsirli hərəkətləri (hərəkətsizliyi), habelə müqavilə üzrə müəyyən edilmiş vəzifələrinin icra edilməməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini Paylayıcıdan tələb etmək" qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?**
A) Energetika Nazirliyi əməkdaşının hüquqları
B) İstehlakçının hüquqları
C) Paylayıcının hüquqları
D) Asan xidmət əməkdaşının hüquqları
E) Nazirlər Kabineti əməkdaşının hüquqları

**4. Səyyar xidmət müqaviləsi nə zamanadək qüvvədə olur?**
A) Xidmətin icrasının mürəkkəbliyinə görə 3 iş günü ərzində
B) Xidmətin icrasının mürəkkəbliyinə görə 5 iş günü ərzində
C) Xidmətin icrası başa çatanadək və ya xitam verildikdə
D) Xidmətin icrasının mürəkkəbliyinə görə 1 iş günü ərzində
E) Xidmətin icrasının mürəkkəbliyinə görə 10 iş günü ərzində

NÜMUNƏ

**5. Vətəndaşların müraciətləri haqqında qanunda-"qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, elm, təhsil, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət" dedikdə hansı anlayış başa düşülür?**

A) Təklif
B) Ərizə
C) Müraciət
D) Şikayət
E) Sərəncam

NÜMUNƏ